# «AZƏRKİTAB»DA RESPUBLİKA GÜNÜNƏ HƏSR OLUNMUŞ TƏDBİR




Bu günlərdə «Azərkitab» kitab təbliğatı mərkəzində Azərbaycan Xalq Cümhuriyyətinin - Şərqdə ilk Demokratik Respublikanın yaranmasının 101-ci ildönümünə həsr olunmuş tədbir keçirilmişdir. Təşkilatçılar «Azərkitab» kitab təbliğatı mərkəzi və Yasamal Rayonu Mikayıl Müşfiq adına 18 saylı tam orta məktəbinin pedaqoji kollektivinin birgə səyi ilə hazırlanmış tədbirdə Yasamal Rayon İcra Hakimiyyətinin başçısı Əziz Əzizov da iştirak edirdi. Tədbiri «Azərkitab» kitab təbliğatı mərkəzinin layihə rəhbəri kitabşünas Sabir Həsənov açaraq pedaqoji kollektivlə «Azərkitab» əməkdaşlarının birgə uğurlu fəaliyyətindən danışdı. Məlum oldu ki, «Azərkitab»da belə tədbirlər ardıcıl keçirilir. Məktəbin direktoru Rəna Süleymanova Azərbaycan Xalq Cümhuriyyətinin ölməyən amallarının yeni nəslə aşılanmasının əhəmiyyətindən söz açdı. Şagirdlərin gücündən istifadə ilə video çarxların, ədəbi kompozisiyaların hazırlanması üçün səylərini əsirgəməyən müəllimlərin - Rəvanə Məmmədovanın, Gülnarə Şabanovanın, Bəsti Ağayevanın... və digərlərinin fədakar fəaliyyətlərini diqqətə çəkdi.

Azərbaycan Xalq Cümhuriyyətinin tarixinə həsr olunmuş birinci video çarx nümayiş etdirildi. Azərbaycan himninin kövrək və hümanizm duyğuları aşılayan müsiqisi hər kəsi təsirləndirdi.

Söz Yasamal Rayon İcra Hakimiyyətinin başçısı Əziz Əzizova verildi. O, qeyd etdi ki, gənc nəslə istiqlal tariximiz dərindən öyrədilməlidir. Bu işdə pedaqoji kollektivin üzərinə böyük vəzifələrin düşdüyünü vurğulayan başçı Azərbaycan Xalq Cümhuriyyətinin qurucuları haqqında geniş və əhatəli məlumat verdi. Tədbirdə iştirak edən fəal şagirdlərin gələcəkdə cümhuriyyət tariximizin araşdırıcıları kimi görkəmli tədqiqatçılar sırasında yer alacağına inamını ifadə etdi.

Yasamal Rayon İcra Hakimiyyətinin başçısı Azərbaycan Xalq Cümhuriyyətinin liderlərinin adlarının əbədiləşdirilməsinə, arxivlərinin Azərbaycana gətirilməsinə indi çox böyük əhəmiyyət verildiyini, əsərlərinin akademik nəşrlərinin hazırlanmasını... və yöndə görülən digər işləri tədbir iştirakçılarının diqqətinə çatdırdı. O, həm də bu gün müasir Bakımızın simasının necə sürətlə dəyişməsini də və bu istiqamətdə möhtəşəm layihələrin həyata keçirilməsini də vurğulayaraq, Ulu Öndər Hey dər Əliyevin yolunun möhtərəm Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirilməsini də Azərbaycanımızın yeni həyatının, yeni səhifələri kimi dəyərləndirdi. Başçı qeyd etdi ki, keçmiş «Sovetski» adlanan məhəllənin hələ ötən əsrin 30-cu illərində sökülməsi haqqında sovet hakimiyyətinin qərarı olsa da, ancaq bu qərar icra edilə bilməmişdi. Bəli, indi həmin ərazilər Bakının ən abad və gözəl seyrangahlarından biridir.

Sonra söz «Kredo» qəzetinin baş redaktoru şair-publisist Əli Rza Xələfliyə verildi. O, 18№-li məktəblə bağlı 40 il əvvəlki xatirələrini danışdı. Bu məktəbin çox zəngin tarixi ənənələri olduğunu yada saldı. Onun cümhuriyyət tariximizlə bağlı fikirləri də maraq doğurdu. Qeyd etdi ki, cümhuriyyət tarixinin liderlərinin həyatı bu günkü gənclik üçün örnək kitabı olmalıdır. İstiqlalımızın ilk qurucuları həyatları boyu hər cür məhrumiyyətlərə sinə gəlməli olublar. Olmazın əzablar, çətinliklər, təqiblər görüblər, amma əqidələrindən dönməyiblər. Çünki onlar istiqlalın nə demək olduğunu yaxşı bilirdilər. Əli Rza Xələfli sözünün sonunda müasir dövlətimizin Azərbaycan Xalq Cümhuriyyəti ilə varisliyini uğurla qoruduğunu, tarixi ənənələrin ideoloji, mənəvi aspektdə yaşadıldığını, davam etdirildiyini Azərbaycan dövlətinin uğuru kimi qiymətləndirdi.



Bundan sonra «Əli və Nino» romanı ilə bağlı şagirdlərin gücü ilə hazırlanmış kiçik sənədli film də nümayiş etdirildi. Bu film göstərdi ki, məktəbdə uşaqların oxu tərbiyəsində, estetik zövqünün formalaşmasında əsaslı iş aparılır.

Tədbirdə nəğməkar-şair Yusif Nəğməkar, Azərbaycan Akademik Milli Dram Teatrının aktyoru Əli Nur, tarixçi-arxeoloq alim Təvəkkül Rəsuloğlu, 18№-li məktəbin müəllimi Gülnarə Şabanova və digər çıxışçılar - Tofiq Əlizadə, Fəsi Alıoğlu, Emin Əliyev, Nəcibə İlkin belə bir ümumi fikirlə razılaşdılar ki, gələcəyimizin uğurlu taleyi keçmişimizi yeni nəslə dərindən və mükəmməl öyrətməkdən asılıdır.

Tədbirin sonunda Yasamal Rayon İcra Hakimiyyətinin başçısı Əziz Əzizov kitabla oxucu arasında körpü missiyası daşıyan kitabşünas Sabir Həsənovun fəaliyyətini təqdir etdi. Məktəbin direktoru Rəna Süleymanovaya və onun rəhbərlik etdiyi pedaqoji rəhbərliyə maraqlı tədbirin hazırlanmasına görə təşəkkür etdi. Bir daha bütün iştirakçıları bayram münasibəti ilə təbrik etdi.

***Rauf İLYASOĞLU,***
***«Respublika» qəzetinin əməkdaşı***